**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2025.2.40**

**İLHAMİ ƏLİYEV**

# SƏFƏVİLƏR DÖVRÜNDƏ BAŞ VERMİŞ OSMANLI-SƏFƏVİ MÜHARİBƏLƏRİNİN NAXÇIVAN BÖLGƏSİ ƏHALİSİNİN DEMOQRAFİK VƏZİYYƏTİNƏ TƏSİRİ

*Məqalədə Səfəvilər dövründə Naxçıvan əhalisinin demoqrafik vəziyyəti ilə bağlı araşdırmalar aparılmışdır. Araşdırmalardan məlum olmuşdur ki, Səfəvilər dövründə baş vermiş Osmanlı-Səfəvi müharibələri Naxçıvan bölgəsində yaşayan əhalinin demoqrafiyasına çox ciddi təsir göstərmişdir. Bu müharibələr zamanı yerli əhalinin öldürülməsi, sürgün edilməsi, onların öz yaşayış yerlərini məcburən tərk etməsi halları dəfələrlə baş vermişdir. Nəticəsində yerli sakinlərin sayı kəskin şəkildə azalmış, onların tarixi yurd yerləri əhalisiz qalmışdır. Bu isə bölgədə iqtisadiyyatın inkişafını təmin edən məhsuldar qüvvələrin sayını aşağı salmışdır. Ən acınacaqlısı isə belə vəziyyət bu zaman boş qalmış yaşayış yerlərində sonralar yerli əhali üçün ağır problemə çevrilən gəlmə ermənilərin məskunlaşmasına yol açmışdır. Bunun əsas səbəbi isə Osmanlı və Səfəvi dövlətləri arasında baş vermiş müharibələrin məzhəbçilik zəminində olması idi. Naxçıvan əhalisi bu üzdən xeyli məhrumiyyətlərlə üzləşməli olmuşdur.*

**Açar sözlər:** *Naxçıvan, Səfəvilər dövrü, Osmanlı dövləti, əhali, yaşayış yerləri, türk tayfaları, demoqrafik vəziyyət.*

Azərbaycanın tarixi bölgələrindən biri olan Naxçıvan diyarında hələ qədimdən müəyyən türk tayfaları yaşamışdır. Türklər hər zaman bu diyarın yerli sakinləri olmuş [12, s. 41], Səfəvilər dövründə də Naxçıvan əhalisinin çox az bir qismi müxtəlif ölkələrdən (Mərkəzi Asiya, Ərəbistan, Hindistan və s.) bura gələn bir sıra peşə sahibləri – səyyahlar, tacirlər, sənətkarlar, alimlər və s. istisna olmaqla, yerli əhalinin etnik tərkibinin əsasını türk tayfaları təşkil etmişdir.

Bölgədə yaşayan əhalinin etnik tərkibi, onun demoqrafik vəziyyətinin araşdırılması sahəsində müxtəlif vaxtlarda akademik A.Sumbatzadə, B.Budaqov, İ.Hacıyev, t.e.d. Q.Qeybullayev, t.ü.f.d. İ.Bağırov, İ.Kəngərli, F.Rzayev [3; 4; 6; 10; 12; 18; 23; 32] və başqa alimlər tərəfindən müəyyən tədqiqatlar aparılmışdır. Səfəvilər dövründə bölgə əhalisinin etnik tərkibinin və demoqrafik vəziyyətinin tədqiq edilməsində məqsəd burada miqrasiyaların törətdiyi problemləri, ermənilərin bu yerlərdə XIX yüzillikdən geniş şəkildə məskunlaşdıqlarını bir daha göstərməkdir.

Səfəvilər dövründə Naxçıvan əhalisi haqqında dəqiq və ətraflı məlumat verən mənbələrdən “İrəvan əyalətinin icmal dəftəri” (1590-cı il), “İrəvan vilayətinin müfəssəl dəftəri” (1590-ci il) və “Naxçıvan sancağının müfəssəl dəftəri” (1727-ci il) sənədləri çox əhəmiyyətlidir [7, s. 164-168, 178-183; 8, s. 169-307, 402-561; 15, s. 37-360]. Bu sənədlərdə Naxçıvan sancağının iyirmi yaşdan yuxarı kişi sakinləri adbaad siyahıya alınmış, bölgə əhalisinin yerləşməsi, miqrasiyası, sayı, etnik tərkibi və s. məsələlərlə bağlı xeyli obyektiv məlumatlar öz əksini tapmışdır.

Tarixdən məlum olduğu kimi, Səfəvilər dövləti yarandığı vaxtdan süqutunadək qonşu dövlətlərlə müharibələr aparmış, hərb şəraitində olmuşdur. Xüsusilə də, Osmanlı İmperiyası ilə fasilələrlə bir əsrə qədər davam edərək 1639-cu il Qəsri-Şirin müqaviləsi ilə sona çatan hərbi əməliyyatlar Səfəvilər dövlətinin iqtisadi həyatına daha ağır zərbələr vurmuş, xeyli insan itkisinə, məcburi əhali yerdəyişmələrinə səbəb olmuşdur. Osmanlıların hücum etdiyi yollar boyu əhali dövlətin içərilərinə doğru sürgün edilmiş, daşınmayan əmlakları isə həyat üçün zəruri olan bütün vasitələrlə birlikdə məhv edilmişdi. İlk dəfə olaraq bu taktikadan I İsmayıl istifadə etmişdir. Onun hərbi qüvvələri Osmanlı hökmdarı Sultan I Səlimlə (1512-1520) hərbi əməliyyatların ilk mərhələsində Diyarbəkirdən çəkilərək yerli əhalini oradan köçürməklə daşınması mümkünsüz olan bütün maddi ehtiyatları məhv etmişdir. Əhalisi köçürülən ərazi Tərcandan (Ərzincanda ərazi) Xoy və Salmasa qədər idi [21, s. 183; 17, s. 234]. Belə məcburi köçürmələr təkcə hücum edən ordunu ərzaq və digər lazımi təminat vasitələrindən məhrum etmək məqsədi daşımırdı. Eyni zamanda bu, müharibələrdə qalib gələn tərəfin tez-tez tətbiq etdiyi ənənəvi bir taktika idi. Məsələn, 1514-cü ildə Çaldıran döyüşündə Səfəvi-

lərin Osmanlılara uduzmasından sonra Təbriz əhalisinin müəyyən qismi Osmanlı dövləti ərazisinə aparılmışdı.

Bir həftə Təbrizdə qaldıqdan sonra Osmanlı qoşunları 1514-cü il sentyabrın 14-də paytaxtı tərk edib, Naxçıvan və Bayburtdan keçərək, qışlamaq üçün Amasiyaya getdi [28, s. 241]. Qışın yaxınlaşması, ərzaq çatışmazlığı və yerli əhalinin müqaviməti Sultan I Səlimi bu yerləri tərk etməyə vadar etdi. Bu yürüş zamanı Naxçıvan qısa bir müddətə, cəmi beş gün osmanlıların nəzarəti altında qalmışdır. Müharibə bölgədə dağıntılarla və siyasi sabitliyin pozulması ilə nəticələnmişdir [5, s. 27-28].

Səfəvi şahı I Təhmasibin hakimiyyəti zamanı, 30-cu illərdə bir neçə dəfə Osmanlı qoşunları Azərbaycan torpaqlarına hücumlar etdilər. Ancaq türklər istər birinci (1534), istərsə də ikinci (1535) yürüşləri zamanı tutduqları Azərbaycan torpaqlarında qızılbaşların ciddi müqaviməti, ərzaq çatışmazlığı və s. səbəblər üzündən bu yerləri tərk etməli oldular. R.Seyvori osmanlıların birinci yürüşündən əvvəl, 1533-cü ildə Səfəvi torpaqlarına hücumundan bəhs etmiş, göstərmişdir ki, 1533-cü ilin yayında Sultan I Süleyman Naxçıvana çatdı, lakin şahın yandırılmış torpaq siyasəti üzündən burada qala bilmədi və geriyə – Ərzuruma çəkildi [33, s. 63]. Göründüyü kimi, şah sultan ordusunun qarşısını almaq üçün ərazinin yandırılması taktikasını tətbiq etmişdir.

1554-cü ilin ortalarında Sultan I Süleyman böyük bir ordu ilə Qarsa gələrək buradan Naxçıvan istiqamətində hücuma başladı. Türk tarixçisi İ.Peçevi sultanın Naxçıvana qədər tutduğu yerlər haqqında bəhs edərkən qeyd etmişdir ki, 1554-cü il iyulun 27-də Osmanlı qoşunları Qarabağları, iki gün sonra isə Naxçıvanı tutdular [29, s. 26-27]. Osmanlı hərbi qüvvələri Naxçıvana daxil olarkən I Təhmasib Bazarçayı yaylağına doğru hərəkət edərək geri çəkildi. Bu hücum zamanı osmanlılar Naxçıvanda cəmisi üç gün qala bildilər. Sultan Süleymanın buranı tez tərk etməsinin əsas səbəblərindən biri ordu üçün yaşayış vəsaiti, ərzaq və hərbi sursatın çatışmaması idi. Ərzaq və yem ehtiyatına ciddi ehtiyac ona görə yaranmışdı ki, hücumdan əvvəl I Təhmasib osmanlılarla mübarizədə onların yolları üzərində olan hər şeyin qızılbaşlar tərəfindən məhv edilməsini həyata keçirmişdi [5, s. 34].

Sultanın dördüncü yürüşü Naxçıvan üçün çox acınacaqlı oldu. Osmanlı qoşunları Naxçıvan şəhərinə gedən yolları üzərindəki bütün yaşayış yerlərini dağıtdılar. Bu zaman böyük bir ordunun ölkə üzərinə hücuma keçməsi, şah qoşununun geri çəkilməsi, türk əsgərlərinin amansız qarət və dağıntıları yerli əhalinin əksər hissəsinin vahimə içərisində, müvəqqəti olaraq öz doğma yurdlarını tərk etməsinə səbəb oldu. Bir çox orta əsr tarixçiləri öz əsərlərində sultanın "Naxçıvan səfəri" haqqında geniş bəhs etmişlər. İstər Səfəvi, istərsə də Osmanlı mənbələri bu müharibənin böyük dağıntılarla nəticələndiyini göstərmişdilər [29, s. 26-27; 9, s. 180].

İ.Peçevi bu müharibənin fəlakətlərini təsvir edərkən qeyd etmişdir ki, osmanlı ordusunun səs-küyündən, gurultusundan, bütün hər yerdə törətdiyi amansız qarət və dağıntıların miqyasından qorxmuş şəhər, kənd və başqa yaşayış yerlərinin sakinləri qaçırdılar. O, həmçinin süvari və piyada əsgərlərin şahın və oğlunun malikanələrini, varlı insanların mülklərini, sarayları və s. qarət etdiklərini, dağıtdıqlarını və bu yerlərin dağıntı topalarına çevrildiyini göstərmişdir [29, s. 27].

XVI əsrin son rübündə, 1578-1590-cı illərdə baş vermiş Osmanlı-Səfəvi müharibələri Naxçıvanın demoqrafik vəziyyətinə çox ağır təsir göstərmişdi. 1578-ci ildə taxta çıxan Məhəmməd Xudabəndənin (1578-1587) hakimiyyəti zamanında dəfələrlə baş verən Osmanlı hücumları nəticəsində Azərbaycanın qərb sərhədlərində yerləşən bölgələrində yaşayış yerləri və təsərrüfat sahələri dağıdılır, talan edilir, insanlar öldürülür və əsir götürülürdü. 1578-ci ildə Mustafa Lələ Paşanın başçılığı ilə yüz min nəfərlik Osmanlı ordusu Azərbaycan ərazisinə daxil olaraq, başqa şəhərlərlə birlikdə Naxçıvanı da tutdu və bir müddətdən sonra siyasi, hərbi amillərdən asılı olaraq buranı tərk etdi. Ancaq Naxçıvan bölgəsi üçün bu hücumlar ağır nəticələrə gətirib çıxarmışdır. Məsələn, tarixçi-alim R.Məmmədov orta əsr mənbələrinə istinadən göstərmişdi ki, "1579-cu ildə Osmanlılar tərəfindən Naxçıvan şəhəri və onun ətraf yerlərindən 40 mindən artıq əsir aparılmışdır" [13, s. 127].

1588-ci ilin noyabrında osmanlılar bölgəni yenidən tutdular. Həm də bu dəfə osmanlılar tutduqları Azərbaycan bölgələrində müəyyən müddətə möhkəmlənə və öz idarəçilik sistemlərini qura

bildilər. Bu vaxta qədər digər Azərbaycan bölgələrində olduğu kimi, Naxçıvan bölgəsində də qeyri-sabit vəziyyət hökm sürmüşdür. Osmanlı-Səfəvi müharibələri nəticəsində dağıntılar və asayişin tez-tez pozulması halları baş vermişdir. Bu müharibələrin Naxçıvan bölgəsi üçün ən acı nəticələrindən biri də əhalinin kütləvi şəkildə öz doğma yaşayış yerlərini tərk edərək Azərbaycanın başqa bölgələrinə köçməsi olmuşdur. Bu fikri bir neçə il sonra hazırlanan Osmanlı dövlət sənədləri təsdiq edir. Belə ki, 1590-cı ildə osmanlılar tərəfindən tərtib edilən "İrəvan əyalətinin müfəssəl dəftəri"nə əsasən Naxçıvan sancağı üzrə 16 nahiyənin 393 yaşayış məskənindən 269-nun əhalisi öz yerlərini tərk etmişdir. Hətta sancağa tabe olan Bazarçayı, Zar, Zəbil nahiyələrinin kəndləri tamamilə boşalmışdır. Bölgə ərazisindəki yaşayış yerlərinin belə kütləvi şəkildə əhalisizləşməsinin nəticəsidir ki, 1590-cı ildə Naxçıvan sancağı üzrə 6037 nəfər vergi mükəlləfiyyəti daşıyan, 20 yaşdan yuxarı şəxsin (kişilərin) adı qeydə alınmışdır [15, s. 12-13]. Həm xarici müdaxilə, həm də daxili hakimiyyət çəkişmələri əhalinin sayının azalmasına, abad şəhərlər, qəsəbələr, kəndlər və s. yaşayış yerlərinin dağıdılmasına gətirib çıxarmışdır.

XVII yüzilliyin I yarısında Naxçıvan bölgəsində əhali sayının azalmasına əsas təsir edən amillərdən biri olan Osmanlı-Səfəvi müharibələri yenə də davam etmişdir. Yeni yüzilliyin əvvəlləri XVI əsrin sonlarında işğal edilmiş Azərbaycan torpaqlarının Səfəvilər tərəfindən azad edilməsi ilə başlanır. Osmanlıların tutduqları digər Azərbaycan bölgələri kimi, Naxçıvan ölkəsi də 1603-cü ildə I Şah Abbas tərəfindən azad edildi. Bu zaman Təbriz Səfəvi qoşunları tərəfindən tutulduqdan sonra növbəti azad ediləcək yerlərdən birinin də Naxçıvan olacağını görən ruhdan düşmüş Osmanlı qoşunu Şərif paşanın rəhbərliyi ilə buranı tərk edərək, İrəvan qalasında möhkəmləndi [31, s. 98]. Mənbələrdən birində bu haqda göstərilir ki, osmanlılar şah qoşununun gəlişini bilən kimi, şəhərdən çıxmazdan əvvəl, onu qarət etməyi və dağıtmağı planlaşdırırdılar. Bu xəbəri eşidən əhali öz yaşayış yerlərini tərk edib dağlara, mağaralara, qala və digər istehkamlara çəkilərək hadisələrin necə qurtaracağını gözlədi. Bu haqda məlumat şaha çatan kimi o, Çıraq Sultanın komandanlığı altında böyük bir qoşunu Naxçıvanın azad edilməsi üçün göndərdi. Bunu görən osmanlılar öz fikirlərindən döndülər və böyük qorxu və təşviş içində Naxçıvandan İrəvan şəhərinə yola düşdülər [24, s. 49-50]. Həmin vaxt 10 minlik türk qoşunu tərəfindən möhkəm müdafiə olunan İrəvan qalasının alınması üçün şah Naxçıvan və Culfa əhalisinin də səfərbərliyə alınaraq döyüşə qatılması haqqında əmr verdi [30, s. 67]. 16 noyabr 1603-cü il tarixindən osmanlılar tərəfindən müdafiə olunan qala nəhayət 8 iyun 1604-cü ildə geri alındı. Bu qədim Azərbaycan şəhərinin azad edilməsində xeyli naxçıvanlı çətinliklərdən – odlu silahlardan açılan atəşlərdən, aclıqdan və soyuqdan həlak olmuşdur [1, s. 475-476]. Buradan görünür ki, təzəcə azad edilmiş Naxçıvanda əhali yeni çətinliklərlə qarşılaşmışdı.

Lakin bu Naxçıvan və digər Azərbaycan bölgələri üçün siyasi sabitliyin əldə edilməsində son nöqtə olmadı. 1605-ci ildə Osmanlı dövləti sərdar Sinan Paşanın rəhbərliyi altında I Şah Abbasa qarşı böyük bir ordu göndərdi [26, s. 183]. Osmanlıların budəfəki, hücumunun səbəbi 1603-cü ildə əldən verdikləri Azərbaycan bölgələrini geri qaytarmaqla bərabər, Şərqdə zəifləyən nüfuzlarını bərpa etmək məqsədini reallaşdırmaq idi. Digər Azərbaycan bölgələri kimi, Naxçıvan da müharibə gedən ərazilərə daxil idi. Həm də bu zaman bölgə XVII əsrdə ən ağır və kəşməkəşli illərini yaşamışdır. Belə ki, Səfəvilərin "ənənəvi yandırılmış torpaq taktikası"ndan istifadə edən I Şah Abbas öz məqsədlərinə çatmaq üçün dövlətin qərb sərhədlərində yerləşən ərazilərində güclü dağıntılar və amansız köçürmə siyasətini həyata keçirmişdir. Hələ Osmanlı qoşunları ölkə ərazisinə daxil olmamış şahın əmrilə Arazın sol sahili boyunda olan yaşayış yerlərinin əhalisi qısa müddətdə, zorla öz doğma yurdlarından Səfəvilər dövlətinin mərkəzi vilayətlərinə köçürülmüşdür. Şah tərəfindən məqsədli şəkildə yerli əhalinin geniş miqyasda köçürülməsi siyasəti tarixdə "Böyük sürgün" adını almışdır.

Bu zaman Əmirgünə xan Qacara İrəvan, Maqsud Sultan Kəngərliyə Naxçıvan, şahın qulamı Təhmasibqulu bəyə Culfa əhalisinin köçürülməsinə rəhbərlik etmək tapşırıldı [30, s. 102]. Təcili surətdə həyata keçirilən bu amansız fərmanın icrası haqqında o dövr mənbələrindən birində belə ya-

zılır: "Xalqı köçürmək üçün göndərilən Səfəvi qoşunu şəhər və kəndlərdən onları sürgün etdilər, bütün ictimai binaları, evləri və s. amansızcasına yandırdılar. Həmçinin tədarük edilmiş ot və küləş ehtiyatını, buğda, arpa və digər ərzaqları bütün hər şeyi dağıtdılar və yandırdılar" [24, s. 63]. Bu haqda bir çox tarixi mənbələrdə bəhs edilmişdir. "Şah Abbas türklərə qarşı müharibəyə başlamış, Naxçıvanı alandan sonra onun istehkamlarını özülünədək dağıtmışdı". Sürgün vaxtı törədilmiş dağıntılar haqqında fransız səyyahı J.Şardənin qeydləri daha ətraflıdır. 1673-cü ildə İrəvan, Naxçıvan, Culfa, Mərənd, Təbriz və s. Azərbaycan şəhərlərində olan J.Şardən gündəliyində yazır ki, I Şah Abbas Naxçıvanı osmanlılardan alandan sonra qala və istehkamlarını sökdürmüş, xaraba qoymuş və əhalisini köçürmüşdü. Həmçinin səyyah qeyd edir ki, şəhər səksən faiz dağıdılmış böyük və qeyri-adi viranə topasıdır. O, Culfa şəhəri haqqında isə belə yazmışdır: "Bu şəhəri qədim adlandırmaqda haqlıdırlar, çünki o, başdan-başa dağıdılmış və viran edilmişdir. Təkcə böyüklüyü hiss olunur. Bundan başqa heç nə təsəvvür olunmur" [19, s. 63, 66]. "Böyük sürgün" siyasətindən əvvəl Culfa da abad və gözəl Azərbaycan şəhərləri sırasında olmuşdur. Bu haqda o dövr xatirə yazılarından birində deyilir: "Culfadan başlayaraq Naxçıvana və Vana qədər bir bina da olsun salamat qalmamışdı" [13, s. 133-134]. Göstərilən faktlar həmin vaxt Naxçıvan bölgəsində xeyli dağıntılar törədilməsini təsdiq edir.

"Böyük sürgün" zamanı bu yerlərin bir çox maddi-mədəniyyət abidələrinin dağıdılması ilə yanaşı insanların mənəvi mədəniyyətinə daha ağır zərbə vurulmuşdur. I Şah Abbasın 1605-ci ildə həyata keçirdiyi "Böyük sürgün" siyasəti zamanı Naxçıvan bölgəsindən 70 mindən artıq sakin öz torpaqlarından sürgün edilmişdir [13, s. 134]. Şahın köçürmə siyasəti bölgə əhalisinin demoqrafik vəziyyətinin dəyişməsinə səbəb olmuşdur. Bu siyasətin həyata keçirilməsi nəticəsində Cənubi Qafqazda məskunlaşmağa başlayan gəlmə ermənilər üçün əlverişli fürsət yaranmışdır.

Tədqiqatlar nəticəsində aydın olur ki, həmin dövrdə ermənilər Osmanlı və Səfəvi dövlətlərinin hakim dairələri yanında qazandıqları məkrli nüfuzlarından istifadə edərək öz məqsədlərinə çatırdılar. Məsələn, 1650-ci ilə aid sənəddə Üçkilsədəki erməni icmasının başçısı Flippos II Şah Abbasa müraciətində yazmışdı ki, hazırda onların məskunlaşdığı bölgədə yaşayanların əksəriyyəti müxtəlif vilayətlərdən əlahəzrət hökmdarın tükənməz sevgisi və qayğısı nəticəsində köçürülmüşdür. Üçkilsədəki bütün ibadətkarlar gecə-gündüz öz dualarında burada yaşamaları üçün əlahəzrət hökmdarın mərhəmətinə borclu olduqlarını göstərirlər [27, s. 368-369]. Bu sənəd şahın onlara qarşı qayğıkeş münasibətini aydın şəkildə göstərir. Təəccüb doğuran hal budur ki, ermənilər eynilə Osmanlı hökmdarları yanında da öz istəklərinə nail olmuşdular. Sultan III Muradın Səvəfilər üzərinə hücumdan əvvəl, 28 aprel 1578-ci ildə imzaladığı fərmanda "... erməni tayfasının mallarına və canlarına zərər verilməməsi ..." əmr edilmişdir [22, s. 281-282]. Fərmandan görünür ki, ənənəvi "məzlumluq" psixologiyası ilə ermənilər sultanın yanında da nüfuz qazana bilmişdilər. Bu və digər tarixi faktlardan aydın olur ki, ermənilər hansı yolla olur olsun Azərbaycanın qədim diyarı olan Naxçıvanda da Səfəvilər dövründən özgə torpaqlarında məskunlaşma kimi çirkin niyyətlərinin həyata keçirilməsinin təməlini atmağa başlamışdılar.

Bir sıra tarixçilər tarixdə "Böyük sürgün" adını daşıyan bu genişmiqyaslı köçürmə siyasətinin həyata keçirilməsini hərbi-siyasi zərurətdən yarandığını göstərmişlər [16, s. 70]. Tarixşünaslıqda yekun olaraq səbəb kimi göstərilmişdir ki, həmin vaxt (1605-ci il) I sah Abbas Osmanlı qoşunlarının hücumunu dəf edə bilməyəcəyini görüb onların yolu üzərindəki bütün yaşayış yerlərini və təsərrüfat sahələrini dağıtdırmış və əhalisizləşdirmişdir. Həmçinin şahın əsas məqsədi İranın mərkəzi vilayətlərində məhsuldar qüvvələri inkişaf etdirmək, Qərblə Şərq arasındakı qədim ticarət yolunun istiqamətini dəyişərək onu ölkənin cənubuna keçirmək idi [2, s. 256]. Fikrimizcə, bununla yanaşı məsələnin digər bir tərəfi ondan ibarət idi ki, şah Osmanlı-Səfəvi sərhədində mümkün qədər geniş neytral zona yaratmaq istəmişdi. Belə taktikanın sonrakı müharibələrdə də tətbiqi göstərir ki, bununla həm də maddi sərvətlərin düşmən əlinə keçməsinin qarşısı müəyyən qədər alınırdı. Bu səbəblər üzündən şah "Böyük sürgün" siyasətini həyata keçirmişdi. Nəticədə isə boş qalmış tarixi Azərbaycan torpaqları viranəliyə çevrilmişdi.

Bütün bu dağıntı və sürgünlərdən sonra, 1605-ci ildə Cığal oğlu Sinan Paşanın başçılıq etdiyi Osmanlı qoşunu İrəvan və Naxçıvan civarına daxil oldu [30, s. 70]. Əhalisi boşaldılmış və xarabalığa çevrilmiş bölgə ərazisində türklər böyük çətinliklərlə – ərzaq və yem ehtiyatının çatışmazlığı, havaların soyuqlaşması və s. ilə üzləşmələrinə baxmayaraq, Naxçıvan şəhərinə doğru irəlilədilər. Bu haqda Arakel Təbrizli yazır ki, öz qoşunları ilə qışı Vanda keçirən Sinan paşa eşidəndə ki, şah İrəvan vilayətindən Təbrizə qayıtdı, Ömər Ağa adlı tanınmış birisini başçı təyin etdiyi böyük hərbi hissə ilə rəhbərsiz qalmış İrəvanı işğal etmək üçün göndərdi. O gəldi, Naxçıvanda yerləşdi və ölkəni idarə etməyə başladı [24, s. 83-84]. Əlbəttə ki, boş və müdafiəsiz qalmış bölgəni işğal etmək yox, orada yerləşmək olardı. Bir qədər sonra şah tərəfindən osmanlılara qarşı Əmirgünə xanın başçılığı ilə göndərilmiş qoşunla Ömər Ağanın hərbi qüvvələri arasında döyüş baş verdi. Bu mübarizədə Səfəvilər qələbə qazandı. Döyüş zamanı Ömər Ağa öldürüldü və onun əsir götürülmüş əsgərləri Təbrizə göndərildi. Bundan sonra şah Naxçıvanda qalmağı və bölgəni osmanlılardan müdafiə etməyi Əmirgünə xana həvalə etdi [13, s. 136].

Osmanlılar 1605-ci ilin əvvəlində Naxçıvanda məğlub edildikdən sonra qışlamaq üçün Vana geriyə qayıtmağa məcbur oldular. Bunun digər səbəbi isə ərzaq və yem ehtiyatının çatışmazlığı nəticəsində qoşun hissələrində yaranan çaxnaşma idi. Ə.Rəhmani göstərir ki, soyuq qışın yaxınlaşması və Osmanlı qoşunları arasında baş verən qarışıqlıq Sinan paşanı qışı keçirmək üçün Vana qayıtmağa sövq etdi [31, s. 105]. Həmin ilin yazında Cığal oğlu Sinan Paşa Səfəvi torpaqlarına 100 minlik qoşunla ikinci dəfə hücum etsə də, yenə məğlub edildi [2, s. 257].

Hələ bu azmış kimi 1618-ci ildə osmanlılar tərəfdən vuruşan Krım xanının 15 minlik qoşunu sultanın əmrilə Azərbaycana soxularkən Naxçıvana da hücum etmiş və buranı talan etmişdi [1, s. 482; 2, s. 260]. S.Məmmədov isə qeyd edir ki, 1618-ci ilin yazında Xəlil paşanın qoşunu ilə birlikdə Krım xanı Canıbəy Gərayın 40 minlik qoşunu Gəncə, Naxçıvan, Culfa və s. yerləri dağıtdılar [26, s. 186]. Mənbələrdə qeyd edilir ki, hücum zamanı Krım xanının qoşunları Gəncə, Naxçıvan, Culfa şəhərlərini və onların ətraf yerlərini qarət edərək, 30 min əsir götürmüş, saysız-hesabsız qənimətlər, minik atları və s. ələ keçirmişdilər [29, s. 84; 26, s. 186]. Tatarların bu hücumu bölgənin iqtisadi həyatına xeyli ziyan vurmuş, burada stabil olmayan siyasi vəziyyəti daha da ağırlaşdırmışdır.

I Şah Abbasın ölümündən sonra, I Səfinin hakimiyyəti zamanı (1629-1642) Osmanlı-Səfəvi müharibələri yenə də davam etməkdə idi. 1629-1632-ci illərdə osmanlılar Bağdadı ələ keçirmək uğrunda hər il Səfəvi torpaqlarına hücumlar etsələr də bir nəticə əldə edə bilmədilər və 1635-ci ilin martında Sultan IV Muradın əmrilə osmanlılar böyük bir ordu ilə – 200 minlik hərbi qüvvə və 130 topla Səfəvilər üzərinə hücuma keçdilər. Bu zaman Təbriz və İrəvan şəhərləri ilə yanaşı Naxçıvan da osmanlılar tərəfindən tutuldu. Həmin vaxt Naxçıvan şəhəri Məhəmməd paşanın dəstəsi tərəfindən fəth edildi [13, s. 137]. Naxçıvanda budəfəki dağıntılar daha geniş şəkildə həyata keçirildi. Bu haqda İ.P.Petruşevski yazır ki, Sultan IV Muradın 1635-ci ildə törətdiyi dağıntılardan sonra Naxçıvan özünə gələ bilmədi [28, s. 291; 13, s. 136-137]. Bağdadın itirilməsi ilə barışmayan Osmanlı sultanı I Səfinin hakimiyyətinin ilk illərindən Səfəvilərlə müharibələri davam etdirmişdir. Bu müharibələr zamanı Naxçıvan da digər Azərbaycan bölgələri kimi döyüş meydanına çevrilmişdir. Lakin, I Səfi də babası kimi gedən müharibələrin çoxunda qalib gəlmişdir. 1635-ci ildə türklərin bu yerləri fəth etməsinə baxmayaraq, sonda Səfəvilər qələbə qazanmışdır. Bu illərdə Səfəvi şahının ən böyük uğuru isə 1578-ci ildən bəri davam edən Osmanlı-Səfəvi müharibələrinə son qoyan sülh müqaviləsini əldə etməsi idi. Şah 1639-cu ildə Qəsri-Şirində bağlanan müqavilə ilə İraq-i Ərəbi osmanlılara versə də, əvəzində bu iki dövlət arasında uzunmüddətli sülhün imzalanmasına nail oldu. Bu müqaviləyə əsasən Naxçıvan əvvəlki kimi, Səfəvilərin hakimiyyəti altında qaldı.

XVI əsrin sonu XVII əsrin I yarısında Naxçıvan diyarında baş verən müharibələr və onların acı nəticələri xalqın həyatında dərin iz buraxmışdır. Demək olar ki, bölgə uzun müddət aramsız müharibələr meydanına çevrilmişdir. Yaşayış yerlərinin və təsərrüfat sahələrinin dağıdılması, insanların öldürülməsi və zorla öz doğma yurdlarından didərgin salınması nəticəsində ölkə iqtisadiyyatı tənəz-

zülə uğramışdır. Boş qalmış qədim Naxçıvan diyarının tarixi torpaqlarında gəlmə ermənilərin yerləşməsi üçün əlverişli şərait yaranmışdır.

XVIII əsrin 20-ci illərinin əvvəllərində, Səfəvilər dövlətində siyasi vəziyyətin ağır olduğu bir vaxtda Rusiya və Osmanlı dövlətləri Səfəvi torpaqlarına açıq müdaxilə etməyə başladılar [11, s. 40]. 1722-ci ildə Rusiya çarı I Pyotr böyük bir ordu ilə hücum edib Xəzəryanı əraziləri tutdu. Sonra müəyyən səbəblər üzündən geriyə çəkilsə də, növbəti illərdə yenidən həmin torpaqları zəbt etdi [25, s. 201]. Osmanlılar isə öz növbəsində 1723-cü ilin yazında Səfəvi torpaqlarına hücum edərək onun əksər hissəsini ələ keçirdilər. Nəticədə, 1724-cü il, iyunun 12-də İstanbulda bağlanan sülh müqaviləsinin şərtlərinə görə Azərbaycanın Xəzəryanı torpaqları Rusiyaya, Astarabad, Mazandaran və Gilanın bir hissəsi istisna olmaqla qalan Səfəvi torpaqlarının əksər hissəsi isə osmanlılara verildi [14, s. 29-30].

Sülh müqaviləsində göstərilən Azərbaycan torpaqlarını, xüsusilə də Naxçıvan bölgəsini tutduqdan sonra osmanlılar bu yerlərdə öz idarəçilik sistemlərini qurmağa başladılar. Əvvəlki idarəçilik zamanında (1588-1603) olduğu kimi, 1724-cü ildə onlar yenə də “Naxçıvan sancağı” inzibati ərazi bölgüsünü tətbiq etdilər. Yenə də türklər “Naxçıvan sancağının müfəssəl dəftəri”ni tərtib etmək üçün 20 yaşdan yuxarı əhalini siyahıya aldılar [15, s. 11, 24].

“Naxçıvan sancağının müfəssəl dəftəri” üzrə aparılan hesablamaların nəticəsindən məlum olmuşdur ki, 1727-ci ildə osmanlılar tərəfindən qüvvəyə minən “Naxçıvan sancağının müfəssəl dəftəri” üzrə 331 şəhər, qəsəbə, kənd və s. yaşayış yeri qeydə alınmışdır [15, s. 37-360] ki, burada 9240 nəfər 20 yaşdan yuxarı kişi əhalinin yaşadığı məlum olur. Qeyd edək ki, bu zaman Naxçıvan sancağının inzibati baxımdan bölündüyü 14 nahiyə (Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Sisyan və Dərələyəz [15, s. 24-36]) bölgənin tarixi torpaqlarını əhatə etmiş və həmin vaxt onun tərkibinə sonralar itirilmiş Azərbaycan torpaqları da daxil olmuşdur. Yuxarıda göstərildiyi kimi, XVI əsrin sonunda Naxçıvan sancağının 393 yaşayış məskənindən 269-nun əhalisi öz yerlərini tərk etmişdir. Amma XVIII əsrin 20-ci illərində tamamilə boşalmış yaşayış yerlərinin sayı 95-ə enmişdir. Boş qalmış yaşayış yerlərində insanların məskunlaşması bir tərəfdən yaxşı idisə, digər tərəfdən çox pis idi. Çünki sonradan məskunlaşan əhalinin müəyyən hissəsi yerli deyil, gəlmələr idi. “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə bir çox kəndlər – Əlincə nahiyəsinin 1, Dərəşahbuz nahiyəsinin 3, Mülki-Arslan nahiyəsinin 1, Məvaziyi-Xatun nahiyəsinin 2, Qışlağat nahiyəsinin 1, Azadciran nahiyəsinin 3, Şorlut nahiyəsinin 1, Sisyan nahiyəsinin 8, Dərələyəz nahiyəsinin 30 kəndi vardır ki, XVI əsrin sonunda bu kəndlərin bir neçəsini çıxmaqla qalan əksəriyyətində ancaq müsəlmanlar yaşamışdılar. Lakin XVIII əsrin 20-ci illərində adlarını sadaladığımız kəndlərdə qeyri-müsəlmanların məskunlaşdığı göstərilmişdir [15, s. 37-360]. Bir faktı da vurğulamaq lazımdır ki, müsəlman olmayanlar sonradan məskunlaşdığı üçün bu kəndlərin əksəriyyətində çox az sayda olmuşlar. Məsələn, Dərələyəz nahiyəsinin qeyri-müsəlmanlar məskunlaşmış 3 kəndinin hər birində 1 nəfər, 12 kəndinin hər birində 2 nəfər, 7 kəndinin hər birində 3 nəfər vergi mükəlləfiyyəti daşıyan qeyri-müsəlman qeydə alınmışdır [15, s. 287-360]. Belə az sayda olmaları da onların sonradan məskunlaşdığını sübut edir. Göründüyü kimi XVI əsrin sonunda qeyri-müsəlmanların sayı XVIII əsrin əvvəllərindəki ilə müqayisədə xeyli az olmuşdur.

Bəhs edilən kəndlərdə qeyri-müsəlmanların məskunlaşmasının bir sıra səbəbləri olmuşdur. Birinci növbədə Osmanlı-Səfəvi müharibələri zamanı qeyri-müsəlmanlara toxunulmaması bu yerlərdə onların yerləşməsinə imkanlar açmışdı [5, s. 129]. İkinci hələ Səfəvilər dövləti zamanından qeyri-müsəlmanlar bu torpaqlarda məqsədli şəkildə məskunlaşmağa başlamışdılar. Məsələn, başqa vilayətlərdən olan qeyri-müsəlman iş adamları bölgədə özlərinə torpaq sahələri satın alırdılar [26, s. 46-49]. Üçüncü bir sıra kəndlərdə qeyri-müsəlman mühacirlərin yaşaması I Şah Abbas tərəfindən XVII əsrin əvvəllərində Çuxursəd bəylərbəyiliyindən sürgün olunmuş həmin əhalinin əsrin ikinci yarısında sürgündən qayıdarkən əvvəlki yerlərində deyil, Naxçıvan sancağında məskunlaşması

nəticəsində yaranmışdı [15, s. 113]. Qeyd edək ki, qeyri-müsəlman əhalinin də milli tərkibi fərqli olmuşdur. Belə ki, məsələn, 1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Əlincə nahiyəsinin Bənəniyar kəndinin 89 nəfər qeyri-müsəlman əhalisinin hamısının Firəng tayfasından olduğu göstərilmişdir [15, s. 69]. Mülki-Arslan nahiyəsinin Cəhri kəndində isə 81 nəfər firəngin olduğu verilmişdir. Burada diqqət çəkən bir məqamı qeyd etmək yerinə düşər ki, bu siyahıda göstərilən 81 nəfər firəngdən əvvəl kəndin qeyri-müsəlman əhalisi göstərilmişdir [15, s. 129]. Bu onu deməyə əsas verir ki, həmin firəng tayfasından olanlar qeyri-müsəlman olmamışlar. Elə həmin mənbədə müsəlmanlığı yenicə qəbul etmiş 1 nəfərin adına rast gəlirik [15, s. 128] ki, bu fikri həmin firənglərə də aid etsək, deməli onlar da müsəlmanlığı qəbul etmiş sayılırdı.

XVII əsr türk səyyahı E.Çələbi də bölgə əhalisinin etnik tərkibindən bəhs edərkən göstərmişdir ki, burada yəhudilər çoxdur, monqol tərəkəmə ləhcəsi ilə danışan tayfa və s. vardır [20, s. 566-568]. Mətndən aydın olur ki, "çoxdur" ifadəsi başqa etnik azlıqlarla müqayisədə belə verilmişdir. E.Çələbinin qeydləri onu deməyə əsas verir ki, qeyri-müsəlmanların etnik tərkibi ilə yanaşı, dini mənsubiyyəti də fərqli olmuşdur. Qaldı ki, müsəlman əhalinin sayına müəllif elə həmin yerdə şiə əhalinin nəinki çoxluğundan, hətta onların müxtəlif firqələrindən də bəhs etmişdir.

Bu dövrdə bölgədə kürdlər də yaşamışdır. Onlar Osmanlı-Səfəvi müharibələrindən sonra bu yerlərə Osmanlı sultanları tərəfindən XVI əsrin sonlarında Diyarbəkir və Dəclə çayı sahillərindən köçürülmüşlər. Osmanlılar kürdləri Osmanlı-Səfəvi müharibələri zamanı boş qalmış torpaqlarda yerləşdirmişlər [22, s. 437-438]. Bu zaman Naxçıvanla yanaşı, Maku və İrəvana da kürdlər köçürülmüşdür.

Beləliklə, aparılan araşdırmalardan məlum olur ki, Səfəvilər dövründə baş vermiş Osmanlı-Səfəvi müharibələri Naxçıvan bölgəsində yaşayan əhalinin demoqrafiyasına çox ciddi təsir göstərmişdir. Bu müharibələr zamanı yerli əhalinin öldürülməsi, sürgün edilməsi, onların öz yaşayış yerlərini məcburən tərk etməsi nəticəsində əhalinin sayı kəskin şəkildə azalmış, onların tarixi yurd yerləri əhalisiz qalmışdır. Bu isə iqtisadiyyatın inkişafını təmin edən məhsuldar qüvvələrin sayını aşağı salmışdır. Ən acınacaqlısı isə bu zaman boş qalmış yaşayış yerlərində sonralar yerli əhali üçün ağır problemə çevrilmiş gəlmə ermənilərin məskunlaşmasına yol açmışdır. Bunun əsas səbəbi isə Osmanlı və Səfəvi dövlətləri arasında baş vermiş müharibələrin məzhəçilik zəminində olması və yerli əhalinin bu üzdən xeyli məhrumiyyətlərlə üzləşməsi olmuşdur.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək): Ali məktəblər üçün dərslik / Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsilə. Bakı: Azərnəşr, 1994, 680 s.
2. Azərbaycan tarixi: 7 cilddə. III c., Bakı: Elm, 1999, 584 s.
3. Bağırov İ. Kəngərlilər və Naxçıvan xanlığı // Azərbaycan tarixində Naxçıvan. Bakı: Elm, 1996, s. 33-42.
4. Budaqov B., Qeybullayev Q. Naxçıvan diyarının yer yaddaşı. Bakı: Nafta-Pres, 2004, 120 s.
5. Əliyev İ.N. Naxçıvan bölgəsi Səfəvilər dövründə. Bakı: Elm və təhsil, 2014, 224 s.
6. Hacıyev İ.M. Naxçıvan bölgəsinin etnik tarixinə dair // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2009, № 1, s. 5-11.
7. İrəvan əyalətinin icmal dəftəri / Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Z. Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Elm, 1996, 184 s.
8. 1590-ci il "İrəvan vilayətinin müfəssəl dəftəri" / Osmanlı türkcəsindən transliterasiya və tərcümə edənlər: t.ü.f.d, dosent H.Qaramanlı və M.İslamoğlu. Bakı: Nəşriyyat şöbəsi, 2023, 576 s.
9. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi) / Farscadan tərcümə, ön söz, şərh və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü O.Əfəndiyev, tarix elmləri namizədi N.Musalı. I c., Bakı: Təhsil, 2009, 792 s.
10. Kəngərli İ.İ. Kəngərli elinin soy kitabı. Bakı: Nurlan, 2005, 296 s.

11. Qarayev E.T. F.İ.Soymonun "Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri" adlı səyahətnaməsi Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: ADPU, 2006, 141 s.
12. Qeybullayev Q. Naxçıvan ərazisində azərbaycanlıların qədim etnik tarixinə dair // Tarix və onun problemləri, 1999, № 2, s. 37-44.
13. Məmmədov R.A. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 158 s.
14. Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002, 372 s.
15. Naxçıvan sancağının müfəssəl dəftəri. Giriş və tərcümənin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Elm, 2001, 376 s.
16. Nəcəfli G.C. XVIII əsrdə Azərbaycanda erməni dövləti yaradılması cəhdləri. Bakı: Elm, 2007, 248 s.
17. Nəciyev E. Səfəvilər dövlətinin əhalisi. Bakı: Turxan, 2024, 396 s.
18. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən (e. ə. VI-III minilliklər). Naxçıvan: Əcəmi, 2014, 448 s.
19. Şardən J. Səyahətnamə / Fransız dilindən tərcümə edəni Vaqif Aslanov. Bakı: Elm, 1994, 96 s.
20. Evliya Çelebi Seyahatnamesi / Sadeleştiren, tevsik temel kuran Necati Aktaş, baskıya hazırlayan Mumin Çevik: 10 ciltte. I-II c., İstanbul: Üçdal Neşriyat, 1985, 767 s.
21. Hoca Sadettin Efendi. Tacü't-tevarih: 5 ciltte. IV c., Ankara: Kültür Bakanlığı Yayınları, 1979, 408 s.
22. Kırzıoğlu F. Osmanlıların Qafqaz ellerini fethi (1451-1590). Ankara: Türk Tarih Kurumu Basımevi, 1993, 550 s.
23. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Т. I, Баку: Элм, 1991, 552 с.
24. Даврижеци Аракел. Книга историй / Текст воспроизведен по изданию Л.Д.Ханларян, Москва: Наука, 1973, 610 с.
25. История Ирана. Москва: Издательство МГУ, 1977, 488 с.
26. Мамедов С.А. Азербайджан по источникам XV – первой половины XVIII вв. Баку: Элм, 1993, 240 с.
27. Персидские документы Матенадарана. Указы / Составитель А.Д.Папазян. Выпуск II: 1601-1650 гг., Ереван: Изд-во АН Армянской ССР, 1959, 593 с.
28. Петрушевский И.П. Азербайджан в XVI-XVII веках / Сборник статей по истории Азербайджана. Баку: Изд-во АН Азербайджанской ССР, 1949, 225-298 с.
29. Печеви И.Э. История (Извлечения по истории Азербайджана и сопределъных стран и областей периода 1520-1640 гг.) / Перевод с турецкого языка и примечания акад. АН Азербайджанской ССР З.М.Буниятова. Баку: Элм, 1988, 100 с.
30. Рахмани А.А. Азебайджан в конце XVI и в XVII веке. Баку: Элм, 1981, 240 с.
31. Рахмани А.А. «Тарих-и алам арай-и Аббаси» как источник по истории Азербайджана. Баку: Элм, 1960, 192 с.
32. Сумбатзаде А.С. Азербайджанцы – этногенез и формирование народа. Баку: Элм, 1990, 304 с.
33. Savory R.M. Iran under the Safavids. London: Cambridge University Press, 1980, 278 p.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ilhamialiyev@yahoo.com.tr***

**Ilhami Aliyev**

## THE IMPACT OF THE OTTOMAN-SAFAVID WARS THAT TOOK PLACE DURING THE SAFAVID PERIOD ON THE DEMOGRAPHIC SITUATION OF THE POPULATION OF THE NAKHCHIVAN REGION

The article studies the demographic situation of the population of Nakhchivan during the Safavid period. Research has indicated that the Ottoman-Safavid wars that took place during the Safavid era had a serious impact on the demographics of the population living in the Nakhchivan region. During these wars, there were many cases of killings, deportations, and forced displacement of the local population. As a result, the number of residents decreased sharply, and their historical homeland remained uninhabited. This reduced the number of productive forces that ensured economic development. The saddest thing is that this paved the way for the settlement of the vacated residential areas by foreign Armenians, which subsequently became a serious problem for the local population. The main reason for this was that the wars between the Ottoman Empire and the Safavids were based on religious strife, as a result of which the local population faced significant difficulties.

**Keywords:** *Nakhchivan, Safavid period, Ottoman state, population, places of residence, Turkic tribes, demographic situation.*

**Ильхами Алиев**

## ВЛИЯНИЕ ОСМАНО-СЕФЕВИДСКИХ ВОЙН, ПРОИСХОДИВШИХ В СЕФЕВИДСКИЙ ПЕРИОД, НА ДЕМОГРАФИЧЕСКОЕ ПОЛОЖЕНИЕ НАСЕЛЕНИЯ НАХЧЫВАНСКОГО РЕГИОНА

В статье исследуется демографическое положение населения Нахчывана в период Сефевидов. Исследования показали, что османо-сефевидские войны, имевшие место в эпоху Сефевидов, оказали очень серьезное влияние на демографию населения, проживающего в Нахчыванском регионе. В ходе этих войн было много случаев убийств, депортаций и насильственного перемещения местного населения. В результате численность местных жителей резко сократилась, а их историческая родина осталась необитаемой. Это сократило количество производительных сил, обеспечивающих экономическое развитие. Самое печальное, что это открыло путь для заселения освободившихся жилых массивов зарубежными армянами, что впоследствии стало серьезной проблемой для местного населения. Основной причиной этого было то, что войны между Османской империей и Сефевидами были основаны на религиозной розни, в результате чего местное население сталкивалось со значительными трудностями.

**Ключевые слова:** *Нахчыван, период Сефевидов, Османское государство, население, места проживания, тюркские племена, демографическая ситуация.*

*(AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 19.06.2025**
**Son variant 23.07.2025**